## Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının *fəaliyyətinin təmin edilməsi* haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında əsasnamə təsdiq edilsin.

~~2. Elmi dərəcələrin və elmi adların verilməsi qaydaları haqqında Əsasnamə təsdiq edilsin.~~ [2]

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının xərclər smetasını ~~və işçilərin say həddini~~ təsdiq etsin, onun fəaliyyətinin təmin olunması ilə bağlı maddi-texniki təchizat məsələlərini həll etsin;[3]

bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

*3-1. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Aparatının işçilərinin say həddi 75 ştat vahidi müəyyən edilsin.*[4]

4. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası öz fəaliyyətinin bu Fərmanla təsdiq edilən əsasnamələrə uyğun qurulması üçün lazımi tədbirlər görsün.

5. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 fevral 2003-cü il
857

**ƏLAVƏ I**

Azərbaycan Respublikası Prezidentinin
2003-cü il 21 fevral tarixli 857 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

### Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında

### ƏSASNAMƏ

### *1.* ÜMUMİ MÜDDƏALAR[5]

*1.1.* Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası (bundan sonra - Komissiya) *Azərbaycan Respublikasında yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyasını, onlara elmi dərəcələr və elmi adlar verilməsini, o cümlədən xarici ölkələrdə verilmiş elmi dərəcə və elmi adlar haqqında sənədlərin tanınmasını, elmi müəssisələrin (təşkilatların) akkreditasiyasını, bu sahədə (bundan sonra – müvafiq sahədə) dövlət siyasətini və tənzimləməsini həyata keçirən, elmi potensialın formalaşmasında* iştirak edən dövlət orqanıdır. [6]

*Komissiya öz fəaliyyətində qanunilik, obyektivlik, şəffaflıq və peşəkar etik normalara əməl edilməsi prinsiplərini əsas tutmaqla, qərarların qəbulunda müstəqildir.*[7]

Komissiya Azərbaycan Respublikasının Prezidentinə tabedir. [8]

*1.2.* Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinln qərar və sərəncamlarını, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.[9]

*1.3. Komissiyanın müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.*[10]

*1.4. Komissiya öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.*[11]

*1.5. Komissiyanın saxlanması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.*

*1.6.* Komissiya Bakı şəhərində yerləşir.

### *2. Komissiyanın vəzifələri*[12]

*2.0. Komissiyanın vəzifələri aşağıdakılardır:*

*2.0.1. elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi dərəcələr (fəlsəfə doktoru, elmlər doktoru) və elmi adlar (dosent, professor) verilməsi barədə vəsatətləri əsasında elmi dərəcə və elmi adlar verilməsini təmin etmək;*

*2.0.2. fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsi üzrə dissertasiya şuraları (bundan sonra – dissertasiya şuraları) yaratmaq, həmin şuralarda müdafiə hüququ verilən ixtisasların siyahısını müəyyənləşdirmək;*

*2.0.3. elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin təklifləri əsasında elmi dərəcələr verilən ixtisasların pasportlarını hazırlamaq;*

*2.0.4. elm sahələri üzrə ekspert şuraları yaratmaq;*

*2.0.5. dissertasiya şuralarının və ekspert şuralarının fəaliyyətinə nəzarət etmək;*

*2.0.6. xarici ölkələrdə verilmiş elmi dərəcə və elmi adlar haqqında sənədlərin tanınmasını nostrifikasiya və ya şəxslərin təkrar attestasiyası əsasında həyata keçirmək;*

*2.0.7. Azərbaycan Respublikasında elmi dərəcə və elmi ad almış şəxslərə dövlət sənədləri (diplomlar, attestatlar) vermək;*

*2.0.8. xarici ölkələrdə verilmiş elmi dərəcə və elmi adlar haqqında sənədlərin nostrifikasiyası və ya xarici ölkələrdə elmi dərəcə və (və ya) elmi ad almış şəxslərin təkrar attestasiyası əsasında şəhadətnamələr vermək;*

*2.0.9. elmi dərəcə və elmi adlar verilməsinə dair tələblərin beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etmək;*

*2.0.10. elmin inkişaf istiqamətlərini nəzərə alaraq, yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrlar hazırlanmasının tənzimlənməsi və səmərəliliyinin artırılması ilə bağlı aidiyyəti üzrə təkliflər vermək;*

*2.0.11. informasiya texnologiyalarının tətbiqini genişləndirməklə elmi informasiyanın əlçatanlığının təmin edilməsi, elmi tədqiqatlar haqqında müfəssəl məlumat bazasının formalaşdırılması, analitik-statistik hesabatların keyfiyyətinin yaxşılaşdırılması məqsədilə vahid elektron informasiya sistemi yaratmaq;*

*2.0.12. Azərbaycan Respublikasında müdafiə olunmuş dissertasiyaların uçotu və onların ümumiləşdirilmiş təhlili əsasında illik hesabatlar hazırlamaq, dissertasiyaların nəticələrindən irəli gələn dövlət əhəmiyyətli məsələlər haqqında Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;*

*2.0.13. attestasiya və akkreditasiya işlərinin, habelə fəaliyyət istiqamətləri üzrə digər sənədlərin arxivini (o cümlədən elektron arxivini) yaratmaq və saxlanmasını təmin etmək;*

*2.0.14. dissertasiyaların və avtoreferatların tərtibinə və dissertasiya mövzusu üzrə dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən Azərbaycan Respublikasının dövri elmi nəşrlərinə, o cümlədən elektron nəşrlərinə dair tələbləri, həmçinin dövri elmi nəşrlərin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinin (bazalarının) siyahısını müəyyən etmək;*

*2.0.15. məzmununda dövlət sirri təşkil edən məlumatların olduğu dissertasiyalara və avtoreferatlara dair tələbləri müəyyən etmək;*

*2.0.16. elmi müəssisələrdə (təşkilatlarda) elmi fəaliyyətin təşkilinin və idarə edilməsinin, onların maddi-texniki bazasının, infrastrukturunun, elmi proqramlarının, elmi tədqiqatlarının nəticə və səmərəliliyinin, kadr potensialının, maliyyə resurslarının müvafiq normativ hüquqi aktların tələblərinə uyğunluğunu müəyyən etməklə, həmin müəssisələrin (təşkilatların) akkreditasiyasını keçirmək;*

*2.0.17. akkreditasiyadan keçmiş elmi müəssisələrə (təşkilatlara) akkreditasiya haqqında şəhadətnamə vermək;*

*2.0.18. elmi dərəcə və elmi ad iddiaçılarının təqdim etdikləri dissertasiyaların əsas elmi nəticələrinin dərc olunduğu dövri elmi nəşrlərdə, müdafiə edilmiş dissertasiya işlərində, monoqrafiya və dərsliklərdə, tədris-metodiki işlərdə, yaradıcılıq əsərlərində müəllifinə və mənbəyinə istinad verilmədən digər müəlliflərin materiallarından istifadə aşkar edildiyi halda zəruri tədbirlər görmək;*

*2.0.19. "Elm haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, elmi dərəcədən və elmi addan məhrum etmək və onları bərpa etmək;*

*2.0.20. dövlət elmi attestasiyası və akkreditasiyası üzrə vahid elektron informasiya sistemi yaratmaq və təkmilləşdirmək;*

*2.0.21. yüksəkixtisaslı elmi və elmi-pedaqoji işçilər və elmi tədqiqatlar haqqında elektron məlumat bankı yaratmaq və mütəmadi olaraq onu yeniləmək;*

*2.0.22. müdafiə edilmiş dissertasiya işlərinin təhlilini aparmaq, dissertasiya işlərində şərh olunmuş elmi nəticələrin praktikada tətbiqi imkanlarına dair tövsiyələri aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim etmək;*

*2.0.23. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;*

*2.0.24. Komissiyanın informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;*

*2.0.25. müvafiq sahəyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;*

*2.0.26. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;*

*2.0.27. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;*

*2.0.28. digər dövlət orqanlarının, həmçinin müvafiq sahədə fəaliyyət göstərən qurumların müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;*

*2.0.29. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;*

*2.0.30. müvafiq sahədə onun səlahiyyətinə aid edilmiş dövlət nəzarətini və dövlət monitorinqini həyata keçirmək, hüquqmüəyyənedici sənədlər vermək;*

*2.0.31. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.*

## ~~III. KOMİSSİYANIN ƏSAS FUNKSİYALARI~~[13]

~~6. Komissiya onun üzərinə qoyulmuş vəzifələrə uyğun olaraq:~~

6.1. mülkiyyət formasından asılı olmayaraq *elmi müəssisə və təşkilatlarda* və ali təhsil müəssisələrində fəlsəfə doktoru və elmlər doktoru dissertasiya şuralarını yaradır, həmin şuralarda müdafiə hüququ verilən ixtisasların siyahısını müəyyənləşdirir; [14]

6.2. elmlər doktorlarına və fəlsəfə doktorlarına müvafiq diplomlar, professor və dosentlərə isə müvafiq attestatlar verir; [15]

6.3. mülkiyyət formasından asılı olmayaraq *elmi müəssisə və təşkilatlarda* və ali təhsil müəssisələrində elmi və elmi-pedaqoji işçilərin attestasiyasının təşkilinə nəzarət edir və elmi-metodiki köməklik göstərir; [16]

6.4. səlahiyyətinə aid edilən məsələlərlə əlaqədar Azərbaycan Respublikasını müvafiq beynəlxalq təşkilatlarda qanunvericiliklə müəyyən edilmiş qaydada təmsil edir və xarici ölkələrin dövlət attestasiya orqanları ilə qanunvericiliklə müəyyən edilmiş qaydada qarşılıqlı əlaqələr yaradır;

6.5. müdafiə edilmiş dissertasiya işlərinin təhlilini aparır, dissertasiya işlərində şərh olunmuş elmi nəticələrin praktikada tətbiqi imkanlarına dair tövsiyələri müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına təqdim edir;

6.6. dissertasiyalara, dissertasiya və ekspert şuralarına, eləcə də elmi dərəcə və elmi ad iddiaçılarına aid tələblərlə bağlı lazımi təlimatlar hazırlayır; [17]

6.7. «Elmi dərəcələrin və elmi adların verilməsi qaydaları haqqında» Əsasnaməyə uyğun olaraq xarici dövlətlərdə alınmış elmi dərəcələrin və elmi adların verilməsi haqqında *sənədlərin tanınmasını nostrifikasiya və ya təkrar attestasiya əsasında* həyata keçirir; [18]

6.8. elmi dərəcəsi olan elmi işçilər barədə məlumat bankı yaradır; [19]

6.9. səlahiyyətlərinə aid edilmiş məsələlərə dair Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin (sazişlərinin) layihələrinin hazırlanmasında iştirak edir.

### *3. Komissiyanın hüquqları*[20]

*3.0. Öz vəzifələrini yerinə yetirmək üçün Komissiyanın aşağıdakı hüquqları vardır:*

*3.0.1. Azərbaycan Respublikasının müvafiq sahə üzrə beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;*

*3.0.2. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə müvafiq sahə üzrə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;*

*3.0.3. beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq sahə ilə bağlı təcrübəsini öyrənmək;*

*3.0.4. fəaliyyət istiqamətlərinə uyğun olaraq rəy və təkliflər vermək, təhlillər, ümumiləşdirmələr, tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq;*

*3.0.5. bu məqsəd üçün nəzərdə tutulmuş vəsait dairəsində ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;*

*3.0.6. elmi müəssisə və təşkilatlarda, ali təhsil müəssisələrində elmi və elmi-pedaqoji işçilərin attestasiyasının təşkilinə elmi-metodiki kömək göstərmək;*

*3.0.7. elmi dərəcə və elmi ad iddiaçılarını, elmi rəhbər və elmi məsləhətçiləri, dissertasiya şuralarının sədrlərini, rəsmi opponentləri Komissiyaya dəvət etmək;*

*3.0.8. elmi dərəcə və elmi adlar verilməsi üçün Komissiyada baxılan dissertasiya işlərinin və sənədlərin, elmi müəssisələrin (təşkilatların) akkreditasiya sənədlərinin ekspertizasına, habelə dissertasiya şuralarının fəaliyyətinin yoxlanılmasına yüksəkixtisaslı mütəxəssisləri cəlb etmək;*

*3.0.9. yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrlara tələbatın mövcud elmi potensiala uyğun proqnozlaşdırılmasında iştirak etmək və aidiyyəti üzrə təkliflər vermək;*

*3.0.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;*

*3.0.11. bülletenlər və digər nəşrlər buraxmaq;*

*3.0.12. istifadəsində olan dövlət əmlakına dair hüquqları həyata keçirmək;*

*3.0.13. aidiyyəti dövlət qurumlarının və təşkilatların mütəxəssislərini cəlb etməklə, komissiyalar, koordinasiya və ekspert şuraları, işçi qruplar yaratmaq, müvafiq sahəyə dair metodiki materiallar və tövsiyələr hazırlamaq;*

*3.0.14. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;*

*3.0.15. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.*

### 4. KOMİSSİYANIN FƏALİYYƏTİNİN TƏŞKİLİ[21]

*4.1.* Komissiyaya Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad olunan sədr rəhbərlik edir. [22]

Komissiyanın sədri Komissiyaya həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və *hüquqların həyata keçirilməsi üçün şəxsən* məsuliyyət daşıyır. [23]

Sədrin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən iki müavini vardır. *Sədr müavinləri sədrin onlara həvalə etdiyi vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.* [24]

*4.2. Komissiyanın sədri:*[25]

*4.2.1. Komissiyanın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;*

*4.2.2. müəyyən edilmiş əməkhaqqı fondu və işçilərin say həddi daxilində Komissiyanın Aparatının strukturunu, ştat*

*cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edir;*

*4.2.3. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Komissiyanın digər vəzifəli şəxslərinin kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;*

*4.2.4. Komissiyanın Aparatının işçilərini, o cümlədən Komissiyanın Aparatının struktur bölmələrinin rəhbərlərini, onların müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür, müvafiq sahədə fərqlənən işçiləri Komissiyanın təsis etdiyi döş nişanları ilə və fəxri fərmanlarla təltif edir;*

*4.2.5. Komissiyanın Aparatının struktur bölmələrinin əsasnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 4.5-ci və 4.7-ci bəndlərində Komissiyanın Rəyasət Heyətinin və Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə qərarlar qəbul edir;*

*4.2.6. Komissiyanın Rəyasət Heyətinə və Kollegiyasına sədrlik edir;*

*4.2.7. Komissiyanın Rəyasət Heyətinə Komissiyanın ekspert şuralarının və dissertasiya şuralarının tərkibi barədə təkliflər verir;*

*4.2.8. Komissiyanın Rəyasət Heyətinin və Kollegiyasının protokollarını və qərarlarını, əmr və sərəncamları, diplom, attestat, şəhadətnamə və onların dublikatlarını imzalayır;*

*4.2.9. Komissiyanın ekspert şurası üzvlərinin və ekspertizaya cəlb olunan digər rəyçilərin əməyinin ödənilməsini təmin edir;*

*4.2.10. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları, idarə, müəssisə və təşkilatları, hüquqi və fiziki şəxsləri ilə, habelə beynəlxalq təşkilatlarla münasibətlərdə Komissiyanı təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;*

*4.2.11. Komissiyaya həvalə edilmiş məsələlərlə bağlı müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitin formalaşdırılması ilə bağlı təkliflər verir;*

*4.2.12. dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir;*

*4.2.13. Komissiyanın vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;*

*4.2.14. bu Əsasnaməyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.*

*4.3.* Komissiyanın baş elmi katibi Komissiyanın sədri tərəfindən vəzifəyə təyin olunur və vəzifədən azad edilir. [26]

Komissiyanın baş elmi katibi Komissiyanın sədri ilə birlikdə Komissiyanın rəyasət heyətinin və kollegiyasının protokollarını və qərarlarını, elmi dərəcələr və elmi adlar verilməsi ilə bağlı diplom, *attestat, şəhadətnamə və onların dublikatlarını* imzalayır. [27]

*4.4.* Komissiyanın tərkibində Komissiyanın rəyasət heyəti, və kollegiya fəaliyyət göstərir. [28]

Komissiyanın rəyasət heyətinin tərkibi Azərbaycan Respublikası Prezidentinin *Administrasiyasının* rəhbəri tərəfindən təsdiq olunur. [29]

*4.5. Komissiyanın Rəyasət Heyəti:* [30]

*4.5.1. Komissiya sədrinin təqdimatı əsasında Komissiyanın Kollegiyasının tərkibini təsdiq edir;*

*4.5.2. dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə təlimatı və ekspert şuraları haqqında əsasnaməni təsdiq edir;*

*4.5.3. dissertasiya şuralarının və elm sahələri üzrə ekspert şuralarının tərkibini təsdiq edir və zəruri hallarda onların tərkibini yeniləyir;*

*4.5.4. dissertasiya şuralarında müdafiə hüququ verilən ixtisasları təsdiq edir;*

*4.5.5. dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən Azərbaycan Respublikasının dövri elmi nəşrlərinə, o cümlədən elektron nəşrlərinə dair tələbləri müəyyənləşdirir, həmin dövri elmi nəşrlərin siyahısını təsdiq edir və yeniləyir;*

*4.5.6. dövri elmi nəşrlərin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinin (bazalarının) siyahısını təsdiq edir və yeniləyir;*

*4.5.7. dissertasiya və avtoreferatların tərtibinə dair tələbləri təsdiq edir;*

*4.5.8. elmi dərəcələr verilməsinə dair ixtisasların nomenklaturunu təsdiq edir və yeniləyir;*

*4.5.9. elmi dərəcələr verilən ixtisasların pasportlarını təsdiq edir və yeniləyir;*

*4.5.10. mədəniyyət, incəsənət, memarlıq, hərbi, bədən tərbiyəsi və idman sahəsində elmi-pedaqoji kadrlara elmi adların verilməsi üçün əsas götürülən əhəmiyyətli nailiyyətlərin siyahısını müəyyən edir;*

*4.5.11. dissertasiya şuralarının elmi dərəcələr verilməsi haqqında vəsatətlərinə baxır və qərar qəbul edir;*

*4.5.12. elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi (elmi-texniki) şuralarının elmi adlar verilməsi haqqında vəsatətlərinə baxır və qərar qəbul edir;* [31]

*4.5.13. xarici ölkələrdə verilmiş elmi dərəcə və elmi adlar haqqında sənədlərin nostrifikasiyası və xarici ölkələrdə elmi dərəcə və (və ya) elmi ad verilmiş şəxslərin təkrar attestasiyası ilə bağlı məsələlərə baxır və qərar qəbul edir;*

*4.5.14. dissertasiya və ekspert şuralarının işinə nəzarət edir, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi və təcrübənin ümumiləşdirilməsi məqsədilə onların rəhbərlərinin hesabatlarını dinləyir;*

*4.5.15. dissertasiyaların müdafiəsinin keçirilməsi qaydası pozulduğu hallarda xüsusi qərarlar qəbul edir, o cümlədən dissertasiya şuralarının qərarlarını ləğv edir və ya onların fəaliyyətini dayandırır;*

*4.5.16. müəllifinə və mənbəyinə istinad verilmədən digər müəlliflərin materiallarından istifadə aşkar edildikdə, həmin materialların qiymətləndirilməsi qaydasını müəyyən edir;*

*4.5.17. elmi dərəcədən və elmi addan məhrumetmə və onların bərpası barədə qərar qəbul edir;*

*4.5.18. elmi müəssisələrin (təşkilatların) akkreditasiyasının nəticələrinə dair qərar qəbul edir;*

*4.5.19. ixtisas üzrə fəaliyyət göstərən dissertasiya şurası olmadıqda müvafiq dissertasiya şurasının müəyyən edilməsi və təşkili ilə bağlı məsələləri həll edir;*

*4.5.20. dissertasiyanın müzakirəsi və müdafiəsi üçün dissertasiya şurasına təqdim olunan sənədlərin siyahısını təsdiq edir;*

*4.5.21. dissertasiya şurasının nəzdində fəaliyyət göstərən elmi seminarın fəaliyyətinin təşkili qaydasını müəyyən edir;*

*4.5.22. elmi dərəcə və elmi adlar verilməsinə dair vəsatətlərin tərtib olunması qaydasını və vəsatətlərə əlavə olunan sənədlərin siyahısını müəyyən edir;*

*4.5.23. iddiaçının ərizəsinə əsasən onun dissertasiyasına baxılmasının dayandırılması haqqında qərar qəbul edir;*

*4.5.24. Komissiyanın qərarlarından dissertasiya şuralarının, elmi (elmi-texniki) şuraların, iddiaçıların və başqa şəxslərin Komissiyanın Rəyasət Heyətinə etdikləri şikayətlərə baxır və qərar qəbul edir;*[32]

*4.5.25. dissertasiyaların müdafiəsi, elmi dərəcə və elmi adların verilməsi, elmi müəssisələrin (təşkilatların) akkreditasiyası ilə bağlı Komissiyanın səlahiyyətlərinə aid olan digər məsələlərə baxır.*

*4.6. Komissiyanın Rəyasət Heyətinin və Kollegiyasının iclasları Komissiyanın sədri, sədr olmadıqda isə vəzifə bölgüsünə əsasən Komissiya sədrinin müavini tərəfindən çağırılır və ayda bir dəfədən az olmayaraq keçirilir.*[33]

*4.7. Komissiyanın Kollegiyası:*[34]

*4.7.1. Komissiyanın sədrindən (Kollegiyanın sədri), sədr müavinlərindən, Komissiyanın Aparat rəhbərindən və baş elmi katibdən, habelə Komissiyanın digər əməkdaşlarından ibarət tərkibdə yaradılır;*

*4.7.2. Komissiyanın cari fəaliyyəti ilə bağlı məsələləri, Komissiyanın Aparatının struktur bölmələrinin rəhbərlərinin hesabatlarını dinləyir və Komissiya sədrinin zəruri hesab etdiyi hallarda müvafiq qərarların və təlimatların layihələrini müzakirə edir;*

*4.7.3. fəlsəfə doktoru elmi dərəcəsi və dosent elmi adı verilməsi haqqında vəsatətlərə, xarici ölkələrdə verilmiş fəlsəfə doktoru elmi dərəcəsi və dosent elmi adı haqqında sənədlərin nostrifikasiyası və xarici ölkələrdə fəlsəfə doktoru elmi dərəcəsi və (və ya) dosent elmi adı verilmiş şəxslərin təkrar attestasiyası məsələlərinə baxır və qərar qəbul edir;*

*4.7.4. iddiaçının ərizəsinə əsasən fəlsəfə doktoru dissertasiyasına baxılmasının dayandırılması haqqında qərar qəbul edir;*

*4.7.5. öz səlahiyyətlərinə aid məsələlərə dair Komissiyanın Rəyasət Heyəti qarşısında vəsatət qaldırır;*

*4.7.6. fəlsəfə doktoru elmi dərəcəsi və dosent elmi adı verilməsi, xarici ölkələrdə verilmiş fəlsəfə doktoru diplomunun və dosent attestatının nostrifikasiyası və xarici ölkələrdə fəlsəfə doktoru elmi dərəcəsi və (və ya) dosent elmi adı almış şəxslərin təkrar attestasiyası məsələləri ilə bağlı şikayətlərə baxır və qərar qəbul edir.*

*4.8.* Komissiyanın rəyasət heyetinin və kollegiyasının iclasları onların tərkibinin üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir.[35]

Rəyasət heyətinin və kollegiyanın qərarları iclaslarda iştirak edən üzvlərin üçdə ikisinin səs çoxluğu ilə açıq səsvermə yolu ilə qəbul edilir. Komissiyanın qərarları Komissiya sədrinin əmrləri ilə rəsmiləşdirilir.

~~16. Komissiya ona təqdim olunan dissertasiyaların elmi ekspertizasının keçirilməsi, habelə elmi adların verilməsi haqqında vəsatətlərə baxılması üçün elmin, texnikanın, mədəniyyətin və təhsilin müxtəlif sahələri üzrə görkəmli alim və mütəxəssislərindən ibarət iki illik müddətə ekspert şuralarını təşkil edir. Ekspert şuralarının təşkil edilməsi və fəaliyyəti məsələləri "Ekspert şuraları haqqında" Əsasnamə ilə tənzimlənir. Ekspert şurası üzvlərinin və ekspertizaya cəlb olunan digər rəyçilərin əmək haqları qanunvericilikdə müəyyən olunmuş qaydada ödənilir.~~[36]

~~**ƏLAVƏ II**~~

~~Azərbaycan Respublikası Prezidentinin~~
~~2003-cü il 21 fevral tarixli 857 nömrəli Fərmanı ilə~~
~~TƏSDİQ EDİLMİŞDİR~~

~~Elmi dərəcələrin və elmi adların verilməsi qaydaları haqqında~~

~~ƏSASNAMƏ~~[37]

## ~~I. ÜMUMİ MÜDDƏALAR~~

~~1. Bu Əsasnamə elmi və elmi-pedaqoji işçilərin peşəkarlıq səviyyələrinin qiymətləndirilməsinin hüquqi əsaslarını müəyyən edir, elmi dərəcələrin (fəlsəfə doktoru, elmlər doktoru) və elmi adların (dosent, professor) verilməsi məsələlərini tənzimləyir.~~[38]

~~2. Fəlsəfə doktoru elmi dərəcəsi *magistr elmi-ixtisas dərəcəsi və ya ona bərabər tutulan ali təhsili*, elmlər doktoru elmi dərəcəsi isə fəlsəfə doktoru elmi dərəcəsi olan iddiaçılara müvafiq olaraq fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsindən sonra fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsi üzrə dissertasiya şuralarının təqdim etdiyi vəsatət əsasında bu Əsasnamə ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (bundan sonra - Komissiya) tərəfindən verilir.~~[39]

~~Dövlət sirrinə aid olan məlumatları daşıyan dissertasiyalara baxılması zamanı bu Əsasnamənin tətbiq edilməsi qaydaları Komissiya tərəfindən müəyyən edilir.~~[40]

~~3. Dosent və professor elmi adları mülkiyyət formasından asılı olmayaraq *elmi müəssisə və təşkilatların* və ali təhsil müəssisələrinin elmi şuralarının təqdimatı əsasında bu Əsasnamə ilə müəyyən edilmiş qaydada Komissiya tərəfindən verilir.~~[41]

~~4. Fəlsəfə doktorlarına və elmlər doktorlarına qanunvericiliklə müəyyən edilmiş *vahid formalı dövlət sənədi* - diplomlar, dosent və professorlara isə - attestatlar verilir.~~[42]

## ~~II. DİSSERTASİYA ŞURALARI~~

-

5. Dissertasiya şuraları bu Əsasnaməyə və "Dissertasiya şuraları haqqında" Əsasnaməyə uyğun olaraq yaradılır və fəaliyyət göstərirlər.

Dissertasiya şuraları elmin, texnikanın, təhsilin, mədəniyyətin və incəsənətin müxtəlif sahələrində öz elmi nailiyyətləri ilə tanınmış və görkəmli alimləri olan mülkiyyət formasından asılı olmayaraq e*elmi müəssisə və təşkilatlarda* və ali təhsil müəssisələrində onların vəsatətləri əsasında yaradılır. Həmin qurumlar dissertasiya şuralarının işinin təşkili və müdafiələrin keçirilməsi üçün zəruri şərait yaradır və onları lazımi vəsaitlərlə təmin edirlər. [43]

Dissertasiya şuralarının tərkibinə fəal elmi və ya elmi-pedaqoji iş aparan, elmi kadrların hazırlanmasında fəal iştirak edən nüfuzlu alimlər daxil edilirlər.

Dissertasiya şuralarının fəaliyyət müddəti iki ilə qədərdir. [44]

Dissertasiya şuraları bir qayda olaraq bir neçə (dörddən çox olmamaqla) ixtisas üzrə fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarını müdafiəyə və onların müdafiəsini keçirirlər. [45]

*Dissertasiya şurası olmayan ixtisaslar üzrə birdəfəlik dissertasiya şuraları yaradıla bilər. Birdəfəlik dissertasiya şurası müvafiq elm sahələri üzrə fəaliyyət göstərən dissertasiya şurasının bazasında və ya ayrıca yaradılmaqla, bir və ya bir neçə dissertasiyanın müdafiəsi üçün nəzərdə tutulur.* [46]

Dissertasiyaların müdafiəsi və attestasiya məsələləri ilə bağlı sənədlərin tərtibi, həmçinin dissertasiyaların baxılması və müdafiəsi ilə əlaqədar xərclərin ödənilməsi dissertasiya şuralarının fəaliyyət göstərdiyi qurumlar tərəfindən həyata keçirilir.

Dissertasiya şurası nəzdində fəaliyyət göstərdiyi qurumun möhüründən istifadə edir.

6. Komissiya dissertasiya şuralarının fəaliyyətinə nəzarət edir.

-

## III. ELMI DƏRƏCƏ ALMAQ ÜÇÜN TƏQDİM EDİLMİŞ DİSSERTASİYALARA DAİR TƏLƏBLƏR [47]

-

7. Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş elmlər doktoru dissertasiyası iddiaçının müstəqil elmi işi olaraq aşağıdakı tələblərdən birinə cavab verməlidir: [48]

7.1. iddiaçının apardığı elmi tədqiqatlar və araşdırmalar mühüm sosial-mədəni və ya iqtisadi əhəmiyyət kəsb edən yeni və böyük elmi problemin həllini təmin edir;

7.2. dissertasiya işində müvafiq elmi sahənin perspektiv inkişafı üçün böyük nailiyyət hesab edilə bilən yeni nəzəri müddəalar işlənib hazırlanır;

7.3. elmi-texniki tərəqqini sürətləndirməyə əhəmiyyətli töhfə verən, elmi cəhətdən əsaslandırılmış iqtisadi, texniki və texnoloji işləmələr həll olunur;

7.4. iddiaçı fəlsəfə doktoru dissertasiyasının müdafiəsinə çıxardığı elmi müddəaları və nəticələri elmlər doktoru dissertasiyasının müdafiəsinə çıxara bilməz. [49]

8. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya iddiaçının müstəqil elmi işi olaraq aşağıdakı tələblərdən birinə cavab verməlidir: [50]

8.1. dissertasiyada müvafiq elm sahəsi üçün böyük əhəmiyyət kəsb edən hər hansı məsələnin yeni həlli təklif olunur;

8.2. böyük tətbiqi əhəmiyyəti olan iqtisadi, texniki və texnoloji işləmələrin təkmilləşdirilmiş elmi şərhi verilir.

9. Fəlsəfə doktoru elmi dərəcəsinin iddiaçıları Komissiya tərəfindən müəyyən edilmiş qaydada ixtisas fənnindən (dissertasiya iki ixtisas üzrə hazırlandığı hallarda həmin ixtisas fənlərinin hər birindən) fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün imtahanları verməlidirlər. [51]

Fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi iddiaçılarının hazırladıqları dissertasiyanın profili üzrə elm sahəsində ali təhsilləri olmadıqda, onlar həmin elm sahəsinin ümumelmi əsaslarından fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi almaq üçün əlavə imtahan verməlidirlər. Tibb və baytarlıq elmləri üzrə yalnız bu sahələrdə ali təhsili olan şəxslər fəlsəfə doktoru və elmlər doktoru dissertasiyasını müdafiə edə bilərlər. Pedaqoji sahədə fəlsəfə doktoru elmi dərəcəsi iddiaçılarının ali təhsil müəssisəsində aldığı ixtisas üzrə təhsil sahəsində pedaqoji stajı iki ildən az olmamalıdır. [52]

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün imtahanlar verildiyi tarixdən sonra növbəti altı il ərzində etibarlı sayılır.

İxtisas fənni üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün imtahan dissertasiyanın müdafiəsi keçiriləcəyi *elmi müəssisə və təşkilatlarda* və ali təhsil müəssisəsində verilir. [53]

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün keçirilən imtahanların keçirilməsi ilə bağlı xərcləri nəzdində imtahan komissiyası yaradılan müəssisə (birlik, təşkilat) ödəyir. [54]

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün keçirilən imtahanların proqramı və imtahanların aparılma qaydası Komissiya tərəfindən təsdiq edilir.

Dissertasiyanın müdafiəsi üçün birdəfəlik dissertasiya şurasının yaradılması nəzərdə tutulduğu hallarda ixtisas imtahanının veriləcəyi təşkilatı Komissiya müəyyən edir. [55]

10. Elmi dərəcənin iddiaçıları dissertasiyanı xüsusi hazırlanmış əlyazması şəklində təqdim edirlər. [56]

11. Dissertasiya müəllifin təkbaşına yazdığı və açıq müdafiə üçün irəli sürdüyü elmi müddəaların və nəticələrin məcmusunu əhatə edən *elmi tədqiqat işidir*. Dissertasiya daxili vəhdətə malik olmalı, müəllifin elmə şəxsən verdiyi töhfəni əks etdirməlidir. [57]

Müəllif tərəfindən təklif olunmuş yeni nəticələr ciddi əsaslandırılmalı, mövcud faktlarla və elmi baxışlarla müqayisədə tənqidi qiymətləndirilməlidir. Tətbiqi əhəmiyyətə malik dissertasiyada müəllif tərəfindən alınmış elmi nəticələrin praktikada tətbiqi barədə məlumat, nəzəri əhəmiyyətə malik olan dissertasiyalarda isə elmi nəticələrin tətbiqi

ilə əlaqədar tövsiyələr verilməlidir.

Dissertasiya Komissiya tərəfindən müəyyən edilmiş qaydalara uyğun tərtib edilir.

12. Dissertasiyaların mövzuları, bir qayda olaraq, müvafiq elm sahələri üzrə kadr hazırlamaq səlahiyyətinə malik doktoranturası olan elmi müəssisələrin və ali təhsil müəssisələrinin əsas elmi tədqiqat işlərinin istiqamətlərinə, habelə Azərbaycan Milli Elmlər *Akademiyasının* müəyyən etdiyi istiqamətlərə uyğun olmalı, həmin müəssisələrin və ali təhsil müəssisələrinin fakültələrinin elmi (elmi-texniki) şuralarında hər bir iddiaçı üçün ayrılıqda təsdiq olunmalıdır.[58]

Mövzuların təsdiqi ilə eyni zamanda iddiaçının elmi rəhbəri (fəlsəfə doktoru dissertasiyası üzrə) və ya elmi məsləhətçinin təyin olunması barədə istəyinə uyğun olaraq elmi məsləhətçisi (elmlər doktoru dissertasiyası üzrə) təyin olunur.[59]

Dissertasiya üzrə tədqiqat işlərinin iki müxtəlif təşkilatda və ya iki ixtisas üzrə aparılması planlaşdırıldıqda, elmlər doktoru, yaxud fəlsəfə doktoru elmi dərəcəsinə malik iki rəhbər təyin edilə bilər.[60]

13. Dissertasiyaların əsas elmi nəticələri onun ilkin ekspertizasına qədər Azərbaycan Respublikasının *və xarici ölkələrin təsir gücünə (impakt faktoruna) malik olan, istinad indeksli elmi nəşrlərində* dərc olunmalıdır.[61]

Azərbaycan Respublikasının müvafiq elmi nəşrlərinin siyahısı Komissiya tərəfindən müəyyən edilir.

Xarici ölkələrin *təsir gücünə (impakt faktoruna) malik olan* elmi nəşrlərində xarici dildə dərc edilmiş dissertasiyanın əsas elmi nəticələrinin Azərbaycan dilində qısa xülasəsi Komissiyaya təqdim edilməlidir.[62]

14. iddiaçıların fəlsəfə doktoru dissertasiyalarının nəticələrinə dair ən azı beş, o cümlədən xarici ölkələrdə nəşr olunan *təsir gücünə (impakt faktoruna) malik olan* jurnallarda bir, elmlər doktoru dissertasiyalarının nəticələrinə dair isə ən azı iyirmi, o cümlədən xarici ölkələrdə nəşr olunan *təsir gücünə (impakt faktoruna) malik olan* jurnallarda humanitar və ictimai elmlər üzrə üç, təbiət elmləri üzrə isə altı məqaləsi dərc edilməlidir. Elmlər doktoru dissertasiyalarının müdafiəsi üçün iddiaçıların ümumiləşdirici işlərinin, humanitar və ictimai elmlər üzrə isə monoqrafiyanın olması zəruridir.[63]

Dissertasiyanın əsas elmi nəticələrini əks etdirən dərc olunmuş işlərə , əlavə olaraq ixtiralar haqqında müəlliflik şəhadətnamələri, sənaye nümunələri və patentlər, ümumrespublika və beynəlxalq konfrans və simpoziumların nəticələri üzrə dərc olunmuş məruzə və tezislər, elektron elmi nəşrlər də aiddir.[64]

Ümumrespublika konfrans və simpoziumlarının nəticələri üzrə dərc olunmuş məruzə və tezislərə, habelə elektron nəşrlərə dair tələblər Komissiya tərəfindən müəyyən edilir.

15. Dissertasiyanın yazılışı zamanı iddiaçı iqtibas etdiyi materialların mənbələrinə və müəlliflərinə istinad etməlidir.

Kollektiv müəlliflərə mənsub olan elmi ideya və işləmələrdən istifadə edilirsə, iddiaçı bu barədə dissertasiyada qeyd etməlidir.

Müəllifinə və ədəbiyyatına istinad olunmayan özgənin materiallarından istifadə edildikdə, baxılma mərhələsindən asılı olmayaraq dissertasiyanın ekspertizası dayandırılır və iddiaçıya həmin mövzu üzrə təkrar müdafiə hüququ verilmir.

Plagiatlıq faktı təsdiq edilmiş işdə aşkarlandıqda, elmi dərəcənin verilməsi haqqında qərar rəyasət heyəti tərəfindən ləğv edilə bilər.[65]

## IV. DİSSERTASİYALARIN TƏQDİM OLUNMASI VƏ MÜDAFİƏSİ

16. Dissertasiya işinin yerinə yetirildiyi və ya iddiaçının təhkim olunduğu *elmi müəssisə və təşkilat* və ali təhsil müəssisəsi dissertasiyanın ilkin ekspertizasını keçirir və dissertasiya haqqında rəy verir. Rəydə dissertasiyada şərh olunan elmi nəticələrin alınmasında müəllifin konkret şəxsi iştirakı; tədqiqat nəticələrinin dürüstlük dərəcəsi, onların yeniliyi və elmi-praktiki əhəmiyyəti; dissertasiyanın müvafiq ixtisasa uyğun gəlməsi; müəllif tərəfindən dərc olunmuş işlərdə dissertasiya materiallarının əks etdirilməsi dərəcəsi göstərilməlidir.[66]

Rəy iddiaçıya fəlsəfə doktoru dissertasiyası ilkin ekspertizaya təqdim olunduğu gündən iki, elmlər doktoru dissertasiyası üçün isə - üç ay müddətinədək verilməlidir.[67]

*Elmi müəssisə və təşkilatın* və ali təhsil müəssisəsinin rəhbəri rəyin keyfiyyəti, obyektivliyi və hazırlanma müddəti üçün cavabdehdir.[68]

Həmin təşkilat dissertasiya haqqında əsaslandırılmış rəy verməkdən imtina etdikdə, iddiaçının dissertasiyanın müdafiəsinin sonrakı prosedurunu müəyyən etmək məqsədilə Komissiyaya müraciət etmək hüququ vardır.[69]

17. Dissertasiya şurası Komissiyanın müəyyən etdiyi siyahı üzrə sənədlər təqdim edildikdə dissertasiyanı ilkin müzakirə və sonrakı müdafiə üçün qəbul edir.

Dissertasiya şurasında dissertasiyaların ilkin müzakirəsi "Dissertasiya şuraları haqqında" Əsasnaməyə uyğun aparılır. Elmlər doktoru dissertasiyaları dissertasiya şuralarında baxılmağa Komissiya tərəfindən ilkin ekspertizadan keçdikdən sonra qəbul edilir. İlkin ekspertiza zamanı dissertasiyaların Komissiya tərəfindən müəyyən edilmiş tərtib edilmə qaydalarına, bu Əsasnamənin 7-ci və 8-ci bəndlərinin tələblərinə riayət edilməsi nəzərdən keçirilir. İlkin ekspertiza zamanı müəyyən edilmiş nöqsanlar əsaslandırılmalı və dissertasiya nöqsanların aradan qaldırılması üçün vəsatət qaldıran *elmi müəssisə və təşkilata* və ali təhsil müəssisəsinə qaytarılmalıdır. İlkin ekspertizanın müddəti üç aydan çox olmamalıdır.[70]

18. Dissertasiyanın mövzusu iki ixtisası əhatə etdikdə və dissertasiya şurasının ikinci ixtisas üzrə müdafiə keçirmək hüququ, habelə həmin ixtisas üzrə fəaliyyət göstərən şura olmadıqda, müdafiənin keçirilməsi üçün dissertasiya şurasının tərkibinə tələb olunan ixtisas üzrə Komissiya tərəfindən uyğun mütəxəssislər daxil edilir.

19. Dissertasiya şurası sənədlərin təqdim olunduğu gündən etibarən fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müvafiq olaraq iki və üç ay müddətində müdafiəsinin təşkili haqqında qərar qəbul edir.[71]

20. Dissertasiyalar müdafiəyə qəbul olunduqda dissertasiya şurasının icazəsi ilə fəlsəfə doktoru dissertasiyaları üçün bir, elmlər doktoru dissertasiyaları üçün isə iki çap vərəqi həcmində avtoreferat nəşr olunur. Humanitar elmlər sahəsində avtoreferatın həcmi 30 faiz çox ola bilər. Avtoreferatın tərtibinə dair tələblər Komissiya tərəfindən müəyyən olunur.

Avtoreferatda dissertasiyanın əsas ideyaları və nəticələri şərh olunmalı, onun yenilik dərəcəsi və tədqiqatın nəticələrinin elmi və praktiki əhəmiyyəti, aparılan tədqiqatlarda müəllifin şəxsi töhfəsi göstərilməlidir. Dissertasiyanın avtoreferatı dissertasiya şurasının müəyyən etdiyi miqdarda mətbəə üsulu ilə və ya çoxaldıcı aparatlarda çap edilir. [72]

Avtoreferat dissertasiyanın müdafiəsinə azı bir ay qalmış dissertasiya şurasının üzvlərinə, əlaqədar idarələrə və təşkilatlara göndərilir. Avtoreferatların mütləq qaydada göndərilməli olduğu təşkilatların siyahısı "Dissertasiya şuraları haqqında" Əsasnamə ilə, avtoreferatın göndəriləcəyi digər ünvanların siyahısı dissertasiya şurası tərəfindən müəyyən edilir.

Avtoreferat dissertasiyanın yazıldığı dildə olmalıdır.

Avtoreferat başqa dildə yazıldıqda onun Azərbaycan dilində nüsxəsi də hazırlanmalıdır. Azərbaycan dilində yazıldıqda isə onun rus dilində, həmçinin ingilis, fransız və ya alman dillərindən birində xülasəsi verilməlidir. [73]

21. Müdafiəyə təqdim olunan dissertasiyanın bir nüsxəsi və avtoreferatın iki nüsxəsi müdafiəyə ən azı bir ay qalmış şuranın fəaliyyət göstərdiyi *elmi müəssisə və təşkilatın* və ali təhsil müəssisəsinin kitabxanasına verilir və orada əlyazma hüququnda saxlanılır. [74]

22. Dissertasiya şurası dissertasiyalar üzrə müvafiq elm sahəsində səriştəli alimlərdən (onların yazılı razılığı ilə) rəsmi opponentlər (bundan sonra — opponentlər) təyin edir. Opponentlərdən biri müdafiəni keçirən şuranın üzvü ola bilər. [75]

Elmlər doktoru dissertasiyası üzrə üç nəfər elmlər doktoru opponent təyin olunur. [76]

Fəlsəfə doktoru dissertasiyası üzrə iki nəfər opponent təyin edilir. Onlardan biri elmlər doktoru olmalıdır, ikincisi isə fəlsəfə doktoru ola bilər. Dissertasiya şuraları opponentləri təyin edə bilmədiyi hallarda opponentlər Komissiya tərəfindən təyin edilir. [77]

23. Komissiyanın rəyasət heyətinin və ekspert şuralarının sədrləri, Komissiya aparatının əməkdaşları, dissertasiya şuralarının sədrləri və sədr müavinləri, elmi katibləri, iddiaçıların elmi rəhbərləri, elmi məsləhətçiləri, onun elmi əsərlərinin həmmüəllifləri, həmçinin dissertasiyanın yerinə yetirildiyi və ya iddiaçıların işlədikləri kafedra, laboratoriya, şöbənin əməkdaşları, müəssisələrin rəhbərləri, aparıcı təşkilat təyin olunmuş müəssisənin əməkdaşları, bu Əsasnamədə müəyyən olunmuş hallar istisna olmaqla, opponent ola bilməzlər. [78]

Rəyasət heyətinin üzvləri, Komissiya aparatının əməkdaşları, ekspert şuralarının rəhbərləri və üzvləri yalnız Komissiyanın razılığı ilə opponent təyin oluna bilərlər. [79]

Opponentlər müxtəlif təşkilatların əməkdaşları olmalıdırlar.

Opponentlərin əməyinin ödənilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

24. Opponent dissertasiyanı və onun mövzusu üzrə dərc olunmuş elmi işləri araşdıraraq dissertasiya şurasına yazılı rəy təqdim edir. Həmin rəydə seçilmiş mövzunun aktuallığı, nəticələrin yeniliyi və dissertasiyanın bu Əsasnamə ilə müəyyən edilmiş tələblərə cavab verməsi öz əksini tapmalıdır.

Opponentlərin yazılı rəyləri müdafiə gününə azı on gün qalmış dissertasiya şurasına, rəylərin surəti isə həmin müddətdə iddiaçıya təqdim edilməlidir. [80]

Dissertasiya şurası bu Əsasnamə ilə müəyyən edilmiş tələbləri yerinə yetirmədikdə opponenti dəyişə və ya bu Əsasnamə ilə müəyyən edilmiş tələblərə cavab vermədikdə onun hazırladığı rəyi yenidən işləmək üçün opponentə qaytara bilər.

25. Dissertasiya şuraları müvafiq elm sahələrinin inkişafında görkəmli yer tutan təşkilatları dissertasiyalar üzrə aparıcı təşkilatlar kimi təyin edirlər. Aparıcı təşkilatların siyahısı Komissiya tərəfindən müəyyən edilir. [81]

Aparıcı təşkilatın rəyində dissertasiya müəllifinin əldə etdiyi nəticələrin elm və istehsalat üçün əhəmiyyəti əks olunur. Tətbiqi xarakterli dissertasiya haqqında rəydə isə həmçinin onun nəticələrindən istifadə edilməsinə dair tövsiyələr olmalıdır.

Aparıcı təşkilatın rəyi onun rəhbəri və ya rəhbərin müavini tərəfindən təsdiq edilir.

Aparıcı təşkilatın yazılı rəyi və həmin rəyin qəbul olunduğu iclasın protokolu müdafiə gününə azı on gün qalmış dissertasiya şurasına, rəyin surəti isə həmin müddətdə iddiaçıya təqdim edilməlidir.

Dissertasiya şurası aparıcı təşkilatı bu Əsasnamə ilə müəyyən edilmiş tələbləri yerinə yetirmədikdə dəyişə və ya onun hazırladığı rəyi bu Əsasnamə ilə müəyyən edilmiş tələblərə cavab vermədikdə yenidən işləmək üçün aparıcı təşkilata qaytara bilər. [82]

26. İddiaçı tərəfindən dissertasiyanın əsas elmi nəticələrini əks etdirən bu Əsasnamə ilə müəyyən edilmiş sayda işləri dərc edildikdən sonra elmlər doktoru dissertasiyasının müdafiəsi üç aydan, fəlsəfə doktoru dissertasiyasının müdafiəsi isə bir aydan gec olmayaraq keçirilir. [83]

27. Dissertasiya şurasının iclası onun üzvlərinin üçdə iki hissəsi iclasda iştirak etdikdə səlahiyyətli sayılır.

Dissertasiya şurasının iclasında ixtisas üzrə iştirak edən mütəxəssislərin sayı elmlər doktoru dissertasiyasının müdafiəsi zamanı üç elmlər doktorundan, fəlsəfə doktoru dissertasiyasının müdafiəsi zamanı isə iki elmlər doktoru və bir fəlsəfə doktorundan az olmamalıdır. [84]

Dissertasiya şurasının iclasında iştirak edən şura üzvlərinin ən azı üçdə iki hissəsi elmlər doktoru və ya fəlsəfə doktoru elmi dərəcəsinin verilməsinə səs verdikdə, şuranın qərarı qəbul olunmuş hesab edilir. [85]

28. Dissertasiyanın müdafiəsi elmi müzakirə xarakteri daşımalı, yüksək tələbkarlıq, prinsipiallıq və elmi etikaya riayət edilməsi şəraitində keçirilməlidir. Dissertasiyada olan bütün nəlicələrin, elmi və praktiki xarakterli təkliflərin dürüstlüyü və əsaslandırılması hərtərəfli müzakirə edilməlidir.

Opponentlər dissertasiyanın müdafiəsində iştirak etməyə borcludurlar. Müsbət rəy vermiş yalnız bir opponentin üzürlü səbəbə görə müdafiədə iştirak etməməsinə icazə verilir. Bu halda dissertasiya şurasının iclasında həmin opponentin rəyi oxunur.

Dissertasiyaya dair bu Əsasnamənin 24-cü və 25-ci bəndlərinə uyğun olaraq verilmiş rəylər mənfi xarakter daşıdıqda da, dissertasiyanın müdafiəsi keçirilə bilər. [86]

29. Dissertasiyanın müdafiəsi, bir qayda olaraq, Azərbaycan dilində keçirilir. Dissertasiya şurası üzvlərinin və opponentlərin yarıdan çoxunun razılığına əsasən dissertasiyanın müdafiəsi başqa dildə də keçirilə bilər.

Dissertasiya şurasının fəaliyyəti ilə əlaqədar kargüzarlıq işləri Azərbaycan dilində aparılır. Avtoreferat başqa dildə yazıldıqda, onun Azərbaycan dilində xülasəsi verilir. Avtoreferat Azərbaycan dilində yazıldıqda, iddiaçının seçimi ilə onun rus, ingilis, fransız və ya alman dillərindən birində xülasəsi verilməlidir. [87]

30. Dissertasiyanın müdafiəsi qurtardıqdan sonra dissertasiya şurası gizli səsvermə keçirir.

Gizli səsvermənin keçirilməsi üçün açıq səsvermə əsasında sadə səs çoxluğu ilə iclasda iştirak edən dissertasiya şurası üzvlərindən üç nəfərdən az olmamaqla hesablama komissiyası yaradılır.

Hesablama komissiyasının protokolu iclasda iştirak edən dissertasiya şurası üzvlərinin sadə səs çoxluğu əsasında açıq səsvermə yolu ilə təsdiq edilir.

Dissertasiyanın müdafiəsi zamanı dissertasiya şurasının iclaslarının keçirilməsi proseduru, o cümlədən gizli səsvermənin və hesablama komissiyasının işinin təşkili qaydaları "Dissertasiya şuraları haqqında" Əsasnamə ilə müəyyən edilir.

31. Elmi dərəcənin verilməsinə dair gizli səsvermənin nəticələri müsbət olduqda dissertasiya şurası dissertasiya haqqında açıq səsvermə əsasında sadə səs çoxluğu ilə yekun rəy qəbul edir. [88]

Dissertasiya şurasının yekun rəyində dissertasiyanın müəllif tərəfindən alınmış mühüm elmi nəticələri göstərilir, onların dürüstlüyü, yeniliyi, nəzəriyyə və praktika üçün əhəmiyyəti qiymətləndirilir, dissertasiyanın nəticələrinin istifadəsi haqqında tövsiyələr verilir və onun bu Əsasnamənin 17-ci və ya 18-ci bəndlərinin hansı tələblərinə uyğun olaraq qiymətləndirildiyi əks etdirilir.

32. Dissertasiya şurası dissertasiyanın müdafiəsi haqqında müsbət qərar qəbul edildikdən sonra otuz gün müddətində iddiaçının *elmi dərəcə almaq üçün təqdim edilmiş sənədlərini* və dissertasiyanın bir nüsxəsini və onun elektron surətini Komissiyaya göndərir. [89]

İddiaçının *elmi dərəcə almaq üçün təqdim edilmiş sənədlərinin* ikinci nüsxəsi on il müddətində dissertasiya şurasının fəaliyyət göstərdiyi müəssisədə saxlanılır.

İddiaçının *elmi dərəcə almaq üçün təqdim edilmiş sənədləri* Komissiyanın müəyyən etdiyi qaydada tərtib edilir və saxlanılır. Həmin qaydaya uyğun tərtib olunmayan *elmi dərəcə almaq üçün təqdim edilmiş sənədləri* Komissiyada baxılmağa qəbul edilmir. [90]

33. Dissertasiya şurasının dissertasiya müdafiəsinin nəticələri haqqında qərarı mənfi olduqda, sənədlərin iddiaçıya qaytarılması qaydaları və Komissiyaya göndərilən sənədlərin siyahısı "Dissertasiya şuraları haqqında" Əsasnamə ilə müəyyən edilir.

34. Dissertasiya müdafiəsinin nəticələrinə görə dissertasiya şurasının və ya Komissiyanın mənfi qərarı qəbul edilmiş dissertasiya işi yenidən işlənmək şərtilə həmin qərar qəbul edildiyi gündən bir ildən tez olmamaq şərti ilə təkrar müdafiəyə təqdim edilə bilər. Təkrar müdafiə zamanı opponentlər və aparıcı təşkilat dəyişdirilməlidir.

35. *elmi müəssisə və təşkilatların* rəhbərləri və onların müavinləri, ali təhsil müəssisələrinin rektor və prorektorları rəhbərlik etdikləri qurumların nəzdində fəaliyyət göstərən dissertasiya şuralarında müdafiə edə bilməzlər. [91]

36. Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının rəhbərləri dissertasiya və ekspert şuralarının sədri və ya sədr müavini ola bilməzlər.

## V. ALİ ATTESTASİYA KOMİSSİYASINDA DİSSERTASİYALARA BAXILMASI

37. Dissertasiya şuralarının işinə və dissertasiyaların bu Əsasnamə ilə müəyyən edilmiş tələblərə uyğunluğu üzərində nəzarətin və attestasiyaların həyata keçirilməsi ilə bağlı Komissiyanın rəyasət heyətinə və kollegiyasına təklif və tövsiyələr vermək üçün Komissiyanın nəzdində ekspert şuraları yaradılır.

Komissiyanın Rəyasət heyətinin, kollegiyasının və ya rəhbərinin qərarına əsasən ekspert şurasının iclaslarına iddiaçılar, dissertasiya şuralarının sədrləri, opponentlər, elmi rəhbərlər və elmi məsləhətçilər, həmçinin apancı təşkilatın nümayəndələri dəvət edilə bilərlər.

Dəvət olunmuş iddiaçı üzürsüz səbəbə görə dörd ay müddətində ekspert şurasının iclasına gəlmədikdə Komissiya dissertasiya işinin ekspertizasını dayandırır və onu müdafiənin keçirildiyi dissertasiya şurasına geri göndərir. [92]

İddiaçının *elmi dərəcə almaq üçün təqdim edilmiş sənədlərinin* bütün materialları ilə tanış olmaq hüququ vardır. Komissiyanın ekspert şurasının qərarının surəti iddiaçının xahişi ilə bir ay müddətində ona verilir.

Ekspert şurasının fəaliyyəti "Ekspert şuraları haqqında" Əsasnamə ilə müəyyən edilir.

38. Komissiyada elmlər doktoru elmi dərəcəsinin verilməsi üçün təqdim olunan dissertasiya və *elmi dərəcə almaq üçün təqdim edilmiş sənədlərinə* baxılma müddəti altı aydan, fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi üçün təqdim olunan dissertasiya və *elmi dərəcə almaq üçün təqdim edilmiş sənədlərinə* baxılma müddəti isə dörd aydan çox olmamalıdır. [93]

Dissertasiyanın ekspertizasının keçirilməsi üçün daha uzun müddət tələb olunduğu hallarda müddətin uzadılması məsələsi Komissiyanın rəyasət heyəti və ya kollegiyası tərəfindən əsaslandırılaraq həll edilir. Bu bəndin birinci abzasında müəyyən edilmiş müddətə Komissiyanın kollegiyasının qərarı ilə elmlər doktoru dissertasiyaları üçün iki ay, fəlsəfə doktoru dissertasiyaları üçün isə biray əlavə edilə bilər. [94]

Elmi dərəcələrin iddiaçılarının *elmi dərəcə almaq üçün təqdim edilmiş sənədlərinə* baxılma müddətinə müvafiq ilin iyul və avqust ayları daxil deyildir. [95]

39. Dissertasiya şurasının, yaxud Komissiyanın dissertasiyada və *elmi dərəcə almaq üçün təqdim edilmiş sənədlərində* aşkar etdiyi nöqsanların onlara baxılma prosesində düzəldilməsinə yol verilmir.

İddiaçı dissertasiyanı istənilən mərhələdə: dissertasiya şurasında - gizli səsvermənin başlanmasına qədər,

Komissiyada isə - elmi dərəcənin verilməsi haqqındakı qərarın qəbul olunmasına qədər dissertasiyaya baxılmasını dayandırmaq hüququna malikdir. [96]

İddiaçının yazılı ərizəsinə əsasən dissertasiyaya baxılmasının dayandırılması haqqında dissertasiya şurasının və ya Komissiyanın çıxardığı qərar qətidir.

Dissertasiyanın baxılmasının dayandırılmasından sonra o, yeni iş kimi azı bir ildən sonra müdafiəyə təqdim oluna bilər.

40. Elmi dərəcə və elmi adlar almaq üçün Komissiyaya təqdim olunmuş sənədlər Azərbaycan dilində olmalıdır. Stenoqram müdafiənin keçirildiyi dili olduğu kimi əks etdirməlidir. [97]

Dissertasiya xarici dildə yazılmışsa və onun əsas müddəaları yalnız xarici dildə dərc olunmuşsa, Komissiyanın müraciəti əsasında dissertasiya şurası dissertasiyanın əsas müddəalarının Azərbaycan dilinə tərcüməsini təqdim etməlidir.

## VI. ALİ ATTESTASİYA KOMİSSİYASI TƏRƏFİNDƏN ELMİ ADLARIN VERİLMƏSİ

41. Kafedra üzrə professor elmi adı aşağıdakılara verilir:

- müsabiqə və ya təyinat üzrə kafedra müdiri və ya professor vəzifəsini tutan və ya rektor, prorektor (elmi və tədris işləri üzrə) təyin olunmuş və bu vəzifələrdə bir il müvəffəqiyyətlə işləyən, beş il ali pedaqoji iş stajı olan, yüksək metodiki və elmi səviyyədə mühazirələr oxumuş, müdafiədən sonra dərc olunmuş tədris-metodiki və dosent elmi adı almış elmlər doktorlarına.

Kafedra üzrə professor elmi adı müstəsna hallarda aşağıdakı şəxslərə verilə bilər:

- müsabiqə və ya təyinat yolu ilə ali təhsil müəssisində kafedra müdiri, professor, dekan, rektor, prorektor (tədris və ya elmi işlər üzrə) vəzifələrindən birini tutan, həmin vəzifədə iki il müvəffəqiyyətlə işləyən, ali məktəbdə pedaqoji iş stajı otuz beş ildən az olmayan, ali təhsil və ya əlavə təhsil müəssisələri üçün nəzərdə tutulmuş bir dərsliyin və ya həmmüəlliflikdə yazılmış üç dərsliyin (dərs vəsaitinin) və son on il ərzində dərc olunmuş elmi və elmi-metodiki işlərin müəllifi olan, elmi rəhbər kimi beş fəlsəfə doktoru hazırlamış, dosent elmi adı olan fəlsəfə doktorlarına; [98]

- müsabiqə və ya təyinat üzrə ali təhsil müəssisəsində kafedra müdiri və ya professor vəzifəsini tutan, bu vəzifədə bir il müvəffəqiyyətlə işləyən, ali təhsil müəssisəsində incəsənət ixtisası üzrə fənləri on ildən az olmayan müddətdə tədris edən, dərc edilmiş tədris-metodiki və elmi işləri olan, dosent elmi adı almış fəlsəfə doktoru elmi dərəcəsi olan xalq artistlərinə, xalq rəssamlarına, əməkdar incəsənət xadimlərinə, əməkdar memarlara, əməkdar müəllimlərə və əməkdar mədəniyyət işçilərinə; [99]

- müsabiqə və ya təyinat üzrə ali təhsil müəssisəsində kafedra müdiri və ya professor vəzifəsini tutan, bu vəzifədə üç il müvəffəqiyyətlə işləyən, ali təhsil müəssisəsində incəsənət ixtisası üzrə fənləri on ildən az olmayan müddətdə tədris edən, otuz beş il elmi-pedaqoji iş stajı, dərc edilmiş tədris-metodiki və elmi işləri olan, dosent elmi adı almış, respublika və beynəlxalq müsabiqələrin laureatları olan və ya onları hazırlayan incəsənət işçilərinə;

- kafedra rəisi təyin edilmiş və ya professor vəzifəsinə seçilmiş və ya təyin edilmiş, bu vəzifədə bir il müvəffəqiyyətlə işləyən, respublika silahlı qüvvələrində və zabit kadrlarının hazırlanmasında xüsusi xidmətləri olan, ali təhsil müəssisəsində hərbi ixtisas fənlərini on ildən az olmayan müddətdə tədris edən, dərc edilmiş tədris-metodiki və elmi işləri olan və dosent elmi adı almış fəlsəfə doktoru elmi dərəcəsi olan hərbi işçilərə;

- kafedra rəisi təyin edilmiş və ya professor vəzifəsinə seçilmiş və ya təyin edilmiş, bu vəzifədə üç il müvəffəqiyyətlə işləyən, respublika silahlı qüvvələrində və zabit kadrlarının hazırlanmasında xüsusi xidmətləri olan, ali təhsil müəssisəsində hərbi ixtisas fənlərini on ildən az olmayan müddətdə tədris edən, otuz beş il elmi-pedaqoji iş stajı, dərc edilmiş tədris-metodiki və elmi işləri olan və dosent elmi adı almış hərbi işçilərə; [100]

- müsabiqə və ya təyinat üzrə ali təhsil müəssisəsində kafedra müdiri və ya professor vəzifəsini tutan, bu vəzifədə bir il müvəffəqiyyətlə işləyən, ali təhsil müəssisəsində bədən tərbiyəsi və idman ixtisası fənlərini on ildən az olmayan müddətdə tədris edən, fəlsəfə doktoru elmi dərəcəsi və dosent elmi adı olan, respublika və ya beynəlxalq yarışların çempionları olmuş və ya hazırlamış, dərc edilmiş tədris-metodiki və elmi işləri olan bədən tərbiyəsi və idman işçilərinə; [101]

- müsabiqə və ya təyinat üzrə ali təhsil müəssisəsində kafedra müdiri və ya professor vəzifəsini tutan, bu vəzifədə üç il müvəffəqiyyətlə işləyən, ali təhsil müəssisəsində bədən tərbiyəsi və idman ixtisası fənlərini on ildən az olmayan müddətdə tədris edən, otuz beş il elmi-pedaqoji iş stajı, dərc edilmiş tədris-metodiki və elmi işləri olan, respublika və beynəlxalq yarışların çempionları olmuş və ya hazırlamış və dosent elmi adı almış əməkdar məşqçilərə, əməkdar idman ustalarına, əməkdar bədən tərbiyəsi və idman işçilərinə. [102]

42. İxtisas üzrə professor elmi adı aşağıdakılara verilir:

- ali təhsil müəssisələrində elmi-tədqiqat bölməsinin (şöbəsinin, laboratoriyanın) müdiri, baş elmi işçi, aparıcı elmi işçi, böyük elmi işçi vəzifələrinə seçilmiş, bir il bu vəzifələrdə müvəffəqiyyətlə işləyən, azı beş il elmi iş stajı, müdafiədən sonra dərc edilmiş elmi əsərləri olan, elmi rəhbər və ya elmi məsləhətçi kimi elmi dərəcəsini almış təkbaşına dörd mütəxəssis hazırlamış elmlər doktorlarına; [103]

- *elmi müəssisə və təşkilatlarda* müsabiqə yolu ilə elmi-tədqiqat bölməsinin (şöbə, laboratoriya) müdiri, baş elmi işçi, aparıcı elmi işçi, böyük elmi işçi vəzifələrini tutan, bir il bu vəzifələrdə müvəffəqiyyətlə işləyən, azı beş il elmi iş stajı, müdafiədən sonra dərc edilmiş elmi əsərləri olan, elmi rəhbər və ya elmi məsləhətçi kimi elmi dərəcəsini almış beş mütəxəssis hazırlamış elmlər doktorlarına. [104]

43. Kafedra üzrə dosent elmi adı aşağıdakılara verilir:

- kafedra müdiri və ya dosent vəzifəsinə seçilən və ya təyin edilən, yaxud rektor, prorektor (elmi və tədris işləri üzrə), dekan vəzifəsini tutan və həmin vəzifədə bir il müvəffəqiyyətlə işləyən, üç il ali pedaqoji iş stajı, müdafiədən sonra dərc edilmiş tədris-metodik və elmi işləri olan fəlsəfə doktorlarına və ya elmlər doktorlarına; [105]

Kafedra üzrə dosent elmi adı müstəsna hallarda aşağıdakı şəxslərə verilə bilər:

- müsabiqə və ya təyinat üzrə ali təhsil müəssisəsində kafedra müdiri və ya dosent vəzifəsini tutan, bu vəzifədə bir il müvəffəqiyyətlə işləyən, incəsənət ixtisası üzrə fənləri beş ildən az olmayan müddətdə tədris edən, dərc edilmiş elmi əsərləri və tədris-metodiki vəsaitləri olan xalq artistlərinə, xalq rəssamlarına, əməkdar incəsənət xadimlərinə, əməkdar artistlərə, əməkdar rəssamlara, əməkdar memarlara, əməkdar mədəniyyət işçilərinə və ya incəsənət ixtisası üzrə fənləri on ildən az olmayan müddətdə tədris edən, respublika və beynəlxalq sərgi, müsabiqə və festivalların laureatları və qalibləri olmuş, yaxud hazırlamış şəxslərə; [106]

- kafedra rəisi təyin edilmiş və ya dosent vəzifəsinə seçilmiş və ya təyin edilmiş, bu vəzifədə bir il müvəffəqiyyətlə işləyən, respublika silahlı qüvvələrində və zabit kadrlarının hazırlanmasında xüsusi xidmətləri olan, ali təhsil müəssisəsində hərbi ixtisas fənlərini beş ildən az olmayan müddətdə tədris edən, dərc edilmiş elmi əsərləri və tədris-metodiki vəsaitləri olan hərbi işçilərə;

- müsabiqə və ya təyinat üzrə ali təhsil müəssisəsində kafedra müdiri və ya dosent vəzifəsini tutan, bu vəzifədə bir il müvəffəqiyyətlə işləyən, ali təhsil müəssisəsində bədən tərbiyəsi və idman ixtisası fənlərini beş ildən az olmayan müddətdə tədris edən, respublika və ya beynəlxalq yarışların çempionları olmuş və ya hazırlamış, dərc edilmiş elmi əsərləri və tədris-metodiki vəsaitləri olan bədən tərbiyəsi və idman işçilərinə. [107]

44. İxtisas üzrə dosent elmi adı aşağıdakılara verilir:

- *elmi müəssisə və təşkilatlarda* elmi-tədqiqat bölməsinin (şöbə, laboratoriya) müdiri, baş elmi işçi, aparıcı elmi işçi, böyük elmi işçi vəzifələrinə seçilmiş və ya direktor, direktor müavini, elmi katib vəzifələrinə təyin olunmuş, bir il bu vəzifələrdə müvəffəqiyyətlə işləyən, azı üç il elmi iş stajı və müdafiədən sonra dərc edilmiş elmi əsərləri olan elmlər doktorlarına və fəlsəfə doktorlarına; [108]

- ali təhsil müəssisələrində elmi-tədqiqat bölməsinin (şöbə, laboratoriya) müdiri, baş elmi işçi, aparıcı elmi işçi, böyük elmi işçi vəzifələrinə seçilmiş və ya elmi katib vəzifəsinə təyin olunmuş, bir il bu vəzifələrdə müvəffəqiyyətlə işləyən, azı üç il elmi iş stajı və müdafiədən sonra dərc edilmiş elmi əsərləri olan elmlər doktorlarına və fəlsəfə doktorlarına. [109]

- Əvvəllər verilmiş baş elmi işçi elmi adı ixtisas üzrə dosent elmi adına bərabər tutulur. [110]

45. Kafedra üzrə dosent və professor elmi adlarının verilməsi barədə ali təhsil müəssisələrinin elmi şuraları Komissiya qarşısında vəsatət qaldırır. İddiaçılara dosent adı verilməsi üçün vəsatət fəlsəfə doktoru elmi dərəcəsi aldıqdan , xaricdə elmlər doktoru elmi dərəcəsi almış şəxslərin diplomları müvafiq qaydada tanındığı və ya bərabər tutulduğu tarixdən, xaricdə elmi dərəcə almış şəxslərin diplomları müvafiq qaydada tanındığı və ya bərabər tutulduğu tarixdən iki il sonra, professor elmi adı verilməsi üçün isə elmlər doktoru elmi dərəcəsi aldıqdan dörd il sonra , bu Əsasnamənin müvafiq olaraq 41-ci və 43-cü bəndlərinin tələbləri ödənildiyi halda, qaldırıla bilər. Mədəniyyət, incəsənət, hərbi iş, bədən tərbiyəsi və idman profilli ali təhsil müəssisələrinin ümumelmi kafedralarında çalışan iddiaçılar bu Əsasnamənin 41-ci və 43-cü bəndlərinə əsasən ümumi qaydada attestasiya oluna bilərlər. Bu Əsasnamə ilə müəyyən edilmiş müstəsna hallar onlara şamil edilmir. İxtisas üzrə dosent elmi adı verilməsi üçün *elmi müəssisə və təşkilatların*, ali təhsil müəssisələrinin elmi (elmi-texniki) şuraları şəxs elmi dərəcə aldıqdan iki il sonra, bu Əsasnamənin 44-cü bəndinin tələbləri ödənildiyi halda, vəsatət qaldıra bilərlər. [111]

46. Professor və dosent elmi adlarının verilməsinə dair elmi şuranın qərarı gizli səsvermə yolu ilə qəbul edilir. Şuranın üzvlərinin azı üçdə ikisi onun işində iştirak etdikdə, o səlahiyyətli sayılır. Şuranın iclasında iştirak edən şura üzvlərinin azı üçdə ikisi səs verdikdə şuranın qərarı qəbul edilmiş hesab olunur.

47. *elmi müəssisə və təşkilatın*, ali təhsil müəssisəsinin elmi şuralarının elmi ad verilməsinə dair təqdimatı bir ay müddətində Komissiyaya göndərilməlidir. [112]

48. Elmi adların verilməsi haqqında qaldırılmış vəsatətə Komissiyada baxılma müddəti dosent elmi adı üçün üç ay, professor elmi adı üçün isə dörd aydır.

Elmi adların verilməsi haqqında vəsatətlərə baxılma müddətinə müvafiq ilin iyul və avqust ayları daxil deyildir. [113]

## VII. NOSTRİFİKASİYA VƏ TƏKRAR ATTESTASİYA

49. elmi dərəcələrin və elmi adların *tanınması haqqında Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri (sazişləri) olan xarici ölkələrdə verilmiş elmi dərəcə və elmi adlar haqqında sənədlərin nostrifikasiyası* iddiaçının işlədiyi təşkilatın vəsatəti və ya onun ərizəsi əsasında Komissiya tərəfindən həyata keçirilir və Azərbaycan Respublikasının müvafiq diplomları və attestatları verilir. Vəsatət və ya ərizə təmin olunmadıqda Komissiyanın bu qərarından qanunvericilikdə nəzərdə tutulmuş qaydada şikayət verilə bilər. Təqdim edilməli olan sənədlərin siyahısı, onlara baxılması qaydası qanunvericiliyə uyğun olaraq Komissiya tərəfindən müəyyən edilir. [114]

50. elmi dərəcələrin və elmi adların *tanınması və ya bərabər tutulması haqqında Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri (sazişləri) olmayan xarici ölkələrdə verilmiş elmi dərəcələr və elmi adlar haqqında sənədlərin tanınması – xarici ölkələrdə elmi dərəcə və (və ya) elmi ad verilmiş* şəxslərin təkrar attestasiyası iddiaçının işlədiyi təşkilatın vəsatəti və ya onun ərizəsi əsasında qanunvericiliyə uyğun olaraq Komissiya tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir. [115]

## VIII. DİPLOMLARIN VƏ ATTESTATLARIN TƏRTİB EDİLMƏSİ VƏ VERİLMƏSİ

51. Dissertasiya şuralarının və elmi şuraların müvafiq olaraq elmi dərəcələr və elmi adların verilməsi haqqında vəsatətləri əsasında Komissiyanın qəbul etdiyi qərarlar, o cümlədən nostrifikasiya və təkrar attestasiyaya dair qərarlar qəbul edildiyi gündən qüvvəyə minir. [116]

52. Elmlər doktoru və ya fəlsəfə doktoru diplomlarını, habelə professor və dosent attestatlarını itirmiş şəxslərə yeni nömrə ilə həmin sənədlərin dublikatları verilir. Göstərilən sənədlərin sahiblərinin adı, atasının adı və soyadı dəyişdikdə, onların müraciəti əsasında müvafiq sənədlər dəyişdirilə bilər. [117]

53. Diplomların və attestatların, habelə onların dublikatlarının tərtibi və verilməsi Komissiya tərəfindən müəyyən

edilmiş qaydada həyata keçirilir.

## IX. ELMI DƏRƏCƏLƏRDƏN VƏ ELMİ ADLARDAN MƏHRUMETMƏ VƏ ONLARIN BƏRPA EDİLMƏSİ [118]

54. Elmi dərəcə və elmi ad verilmiş şəxslər elmi dərəcədən və (və ya) elmi addan aşağıdakı hallarda məhrum edilə bilərlər: [119]

*elmi etika pozulduqda, yəni nəticə tədqiqat prosesinə uyğun gəlmədikdə, alınan nəticə əsassız olaraq dəyişdirildikdə və ya təhrif edildikdə, başqasına məxsus mətndən, əsərdən, elmi məhsuldan müəllifin icazəsi olmadan və ya yazılı istinad verilmədən istifadə edildikdə, dublikatlaşdırma olduqda və ya eyni mətn digər adla təkrar nəşr edildikdə, müəlliflər dəyişdirildikdə və ya şərikli müəlliflik hüququ pozulduqda, elmi əsərdən, ixtira, faydalı model və sənaye nümunəsindən, qeyri-kommersiya məqsədləri üçün gəlirsiz istifadə halları istisna olmaqla, icazəsiz istifadə edildikdə;* [120]

*müdafiə proseduru pozulduqda;*

*elmi plagiat aşkar edildikdə, yəni müəllifi, götürülmə mənbəyi göstərilmədən başqasının əsəri, elmi kəşfi və ixtirası, səmərələşdirici təklifi, innovasiya məhsulu tam və ya qismən mənimsənildikdə, yaxud özününkü kimi təqdim edildikdə.*

elmi dərəcənin və ya elmi adın şəxsə bu Əsasnamənin tələbləri pozulmaqla verildiyi digər hallar müəyyən edildikdə. [121]

Elmi dərəcə və elmi ad verilmiş şəxslərin elmi dərəcədən və ya elmi addan məhrum edilməsi müvafiq elmi dərəcənin və ya elmi adın verilməsi təşəbbüsü ilə çıxış etmiş dissertasiya şuralarının və elmi şuraların vəsatəti, həmin şuralar ləğv edildiyi halda Komissiyanın öz təşəbbüsü əsasında həyata keçirilir. elmi dərəcədən və ya elmi addan məhrum edilmiş şəxs həmin dissertasiya şuralarına və elmi şuralara, onlar ləğv edildiyi halda Komissiyaya elmi dərəcənin və ya elmi adının bərpa edilməsi barədə müraciət edə bilər. [122]

55. Elmi dərəcələrdən və elmi adlardan məhrum etmək (bərpa etmək) haqqında məsələ«, bir qayda olaraq həmin şəxsin iştirakı ilə şurada müzakirə olunmalıdır. Göstərilən şəxs üzürsüz səbəblərə görə müvafiq şuranın iclasında iştirak etmədikdə, şuranın iclası onun iştirakı olmadan keçirilə bilər. [123]

Müvafiq şuranın iclası onun üzvlərinin üçdə ikisi iclasda iştirak etdikdə, səlahiyyətli sayılır. Elmi dərəcələrdən və elmi adlardan məhrum etmək (bərpa etmək) haqqında qərar şuranın iclasında iştirak edən şura üzvlərinin gizli səsvermə yolu ilə üçdə ikisi qərarın lehinə səs verdikdə qəbul edilir.

Dissertasiya şuraları və elmi şuralar qəbul etdikləri qərara uyğun olaraq Komissiya qarşısında vəsatət qaldırırlar.

56. Elmi dərəcələrin və elmi adların verilməsinin əsaslığı haqqında məsələyə bu barədə müvafiq qərar qəbul olunduğu tarixdən on il keçdikdən sonra baxılmır. [124]

## X. ŞİKAYƏTLƏRƏ BAXILMA

57. Dissertasiya şuralarının və elmi şuraların elmi dərəcələrin və elmi adların verilməsinə, onlardan məhrum edilməsinə (bərpa edilməsinə) dair qərarları barəsində təşkilatlar, iddiaçılar və başqa şəxslər müvafiq dissertasiya şurasına, elmi şuraya və ya Komissiyaya iki ay müddətində şikayət edə bilərlər.

Dissertasiya şuralarının və elmi şuraların şikayətlərə baxılması üzrə qərarı və digər materiallar şuranın iclasından sonra on gün müddətində Komissiyaya göndərilməlidir.

58. Elmi dərəcələrin və elmi adların verilməsinə, onlardan məhrum edilməsinə (bərpa edilməsinə), habelə nostrifikasiya və təkrar attestasiyaya dair məsələlər barədə Komissiyanın rəyasət heyətinin və kollegiyasının qərarlarından dissertasiya şuraları, elmi şuralar, iddiaçılar və başqa şəxslər Komissiyanın rəyasət heyətinə həmin qərarların çıxarıldığı tarixdən etibarən iki ay müddətində şikayət edə bilərlər. [125]

Komissiyanın rəyasət heyətinin dissertasiyanın elmi dəyəri barədə şikayətə dair qəbul etdiyi qərar qətidir. [126]

59. Elmi adların verilməsi haqqında *elmi müəssisə və təşkilatın* və ali təhsil müəssisəsinin elmi şuralarının yeni vəsatəti Komissiya tərəfindən həmin elmi adların verilməsindən imtina və ya məhrum edilmə haqqında qərar qəbul edildiyi tarixdən azı bir il sonra qaldırıla bilər. İddiaçının dərc olunmuş yeni elmi, elmi-tədris, elmi-metodiki və digər işlərinin olması təkrar vəsatətin təqdim olunması üçün məcburi şərtdir. [127]

60. Şikayətlərə baxılma qaydası qanunvericiliyə və bu Əsasnaməyə uyğun olaraq Komissiya tərəfindən müəyyən edilir.

Komissiyanın qərarlarından qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 5 iyun 2008-ci il tarixli 769 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 487**)
2. 21 dekabr 2009-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 27 dekabr 2009-cu il, 289)**
3. 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)**
4. 21 iyul 2017-ci il tarixli **1544** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 23 iyul 2017-ci il, 157 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1354)**
5. 11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019)**
6. 11 iyun 2019-cu il tarixli **728** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1020)**
7. 23 iyun 2020-ci il tarixli **1072** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 iyul 2020-ci il, 124 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 713)**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

[1] 11 iyun 2019-cu il tarixli 727 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə fərmanın adında "**fəaliyyətini tənzimləyən bəzi normativ hüquqi aktların təsdiq edilməsi**" sözləri "**fəaliyyətinin təmin edilməsi**" sözləri ilə əvəz edilmişdir.

[2] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə 2-ci bənddə "**Alimlik dərəcələrinin**" sözləri "**Elmi dərəcələrin**" sözləri ilə əvəz edilmişdir.

11 iyun 2019-cu il tarixli **728** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1020**) ilə 2-ci hissə ləğv edilmişdir.

[3] 11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə 3-cü hissənin ikinci abzasından "**və işçilərin say həddini**" sözləri çıxarılmışdır.

[4] 11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə yeni məzmunda 3-1-ci hissə əlavə edilmişdir.

[5] 11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin I hissə "1" ərəb rəqəmi ilə nömrələnmişdir.

-

[6] 11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 1-ci bəndin birinci abzasda "**respublikada yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində vahid dövlət siyasətini həyata keçirən, onların respublikanın tələbatına uyğun olaraq hazırlanmasında və səmərəli istifadə olunmasında, habelə elmin, texnikanın, təhsilin, mədəniyyətin və incəsənətin inkişaf perspektivlərinin müəyyən edilməsində**" sözləri "**Azərbaycan Respublikasında yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyasını, onlara elmi dərəcələr və elmi adlar verilməsini, o cümlədən xarici ölkələrdə verilmiş elmi dərəcə və elmi adlar haqqında sənədlərin tanınmasını, elmi müəssisələrin (təşkilatların) akkreditasiyasını, bu sahədə (bundan sonra – müvafiq sahədə) dövlət siyasətini və tənzimləməsini həyata keçirən, elmi potensialın formalaşmasında**" sözləri ilə əvəz edilmişdir.

11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 1-ci bəndi 1.1-ci bənd hesab edilmişdir.

[7] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 1-ci bəndin ikinci abzasında "**alimlik dərəcələrinin (elmlər namizədi, elmlər doktoru)**" sözləri "**elmi dərəcələrin (fəlsəfə doktoru, elmlər doktoru)**" sözləri ilə, "**ali məktəblərdən**" sözləri "**ali təhsil** müəssisələrindən" sözləri ilə, "**alimlik dərəcələri**" sözləri "**elmi dərəcələr**" sözləri ilə əvəz edilmişdir.

21 iyul 2017-ci il tarixli **1544** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 23 iyul 2017-ci il, 157 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1354**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin mətn üzrə ismin müvafiq hallarında "**elmi (elmi-tədqiqat, elmi-istehsalat) müəssisələri (təşkilatlar, birliklər)**" sözləri ismin müvafiq hallarında "**elmi müəssisə və təşkilatlar**" sözləri ilə əvəz edilmişdir.

21 iyul 2017-ci il tarixli **1544** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 23 iyul 2017-ci il, 157 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1354**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 1-ci hissənin ikinci abzasında "**attestasiya işlərinin**" sözləri "**dissertasiyaların və sənədlərin, eləcə də xarici ölkələrdə verilmiş elmi dərəcə və elmi adlar haqqında sənədlərin**" sözləri ilə əvəz edilmişdir.

11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 1-ci bəndin ikinci abzası yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~Komissiya elmin, texnikanın, təhsilin, mədəniyyətin və incəsənətin bütün sahələri üzrə elmi dərəcələrin (fəlsəfə doktoru, elmlər doktoru) və elmi adların (dosent və professor) verilməsi ilə bağlı mülkiyyət formasından asılı olmayaraq *elmi müəssisə və təşkilatlardan* və ali təhsil müəssisələrindən daxil olan *dissertasiyaların və sənədlərin, eləcə də xarici ölkələrdə verilmiş elmi dərəcə və elmi adlar haqqında sənədlərin* ekspertizasını həyata keçirir və onlara dövlət tərəfindən elmi dərəcələr və elmi adların verilməsini təmin edir.~~

[8] 5 iyun 2008-ci il tarixli 769 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 487**) ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə»nin 1-ci bəndin birinci abzasında **«dövlət siyasətini»** sözlərindən əvvəl **«vahid»** sözü, ikinci abzasında **«verilməsi ilə bağlı»** sözlərindən sonra **«mülkiyyət formasından asılı olmayaraq»** sözləri əlavə edilmişdir.

[9] 11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 2-ci bəndi 1.2-ci bənd, 4-cü bəndi 1.6-cı bənd hesab edilmişdir.

-

[10] 11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya

Komissiyası haqqında Əsasnamə"nin 3-cü bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~3. Komissiya, müstəqil balansa, xərclər smetasına, sərəncamında olan dövlət əmlakına, müvafiq bank hesablarına, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.~~

-

[11] 11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"yə yeni məzmunda 1.4-cü və 1.5-ci bəndlər əlavə edilmişdir.

-

[12] 5 iyun 2008-ci il tarixli 769 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 487**) ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə»yə 5.3-cü bənddə **«ixtisaslaşdırılmış»** sözü **«müdafiə etdikləri dissertasiyaya görə»** sözləri ilə əvəz edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 5.3-cü bənddə "**elmlər namizədi alimlik dərəcələrini**" sözləri "**fəlsəfə doktoru elmi dərəcələrini**" sözləri ilə əvəz edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 5.4-cü bənddə "**alimlik dərəcəsinə**" sözləri "**elmi dərəcəyə**" sözləri ilə əvəz edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 5.5-ci bənddə "**namizədlik və doktorluq**" sözləri "**fəlsəfə doktoru və elmlər doktoru**" sözləri ilə əvəz edilmişdir.

21 dekabr 2009-cu il tarixli **195** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 27 dekabr 2009-cu il, 289**) ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə»yə 5.6-cı bənd əlavə edilmişdir.

11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin II hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

## II. KOMİSSİYANIN ƏSAS VƏZİFƏLƏRİ

~~5. Komissiyanın əsas vəzifələri aşağıdakılardır:~~

~~5.1. Azərbaycan Respublikasının elmi potensialının formalaşmasında iştirak etmək;~~

~~5.2. elmin inkişaf istiqamətlərini nəzərə alaraq yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanmasının tənzimlənməsi və səmərəliliyinin artırılması ilə bağlı müvafiq dövlət hakimiyyəti orqanlarına təkliflər vermək;~~

~~5.3. yüksək ixtisas biliyinə malik və elmin müəyyən sahələrində böyük nailiyyətləri olan şəxslərə müdafiə etdikləri dissertasiyaya görə dissertasiya şuralarının (bundan sonra - dissertasiya şuraları) vəsatətləri əsasında elmlər doktoru, fəlsəfə doktoru elmi dərəcələrini, elmi şuraların təqdimatı əsasında professor və dosent elmi adlarını vermək;~~

~~5.4. elmi dərəcəyə malik elmi və elmi-pedaqoji işçilər, eləcə də respublikada müdafiə olunmuş dissertasiyalar haqqındakı məlumatlar əsasında milli informasiya resurslarının inkişaf etdirilməsində iştirak etmək;~~

~~5.5. fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının nəticələrindən irəli gələn mühüm dövlət əhəmiyyətli məsələlər haqqında Azərbaycan Respublikasının Prezidentinə məlumatlar vermək.~~

~~5.6. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək.~~

[13] 11 iyun 2019-cu il tarixli **727** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyun 2019-cu il, 126 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6 , maddə 1019**) ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin III hissəsi ləğv edilmişdir.

-

[14] 5 iyun 2008-ci il tarixli 769 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 487**) ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə»yə 6.1-ci bənddə **«elmi (elmi-tədqiqat, elmi-istehsalat)»** sözlərindən əvvəl **«mülkiyyət formasından asılı olmayaraq»** sözləri, **«müdafiə»** sözündən əvvəl **«həmin şuralarda»** sözləri əlavə edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 6.1-ci bənddə "**ali məktəblərdə doktorluq və namizədlik**" sözləri "**ali təhsil müəssisələrində fəlsəfə doktoru və elmlər doktoru**" sözləri ilə əvəz edilmişdir.

[15] 5 iyun 2008-ci il tarixli 769 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 487**) ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə»yə 6.2-ci bəndin ikinci cümləsində **«əcnəbilərə»** sözündən sonra **«, zəruri hallarda, Azərbaycan Respublikası vətəndaşlarına»** sözləri, **«fəlsəfə doktoru»** sözlərindən sonra **«(Doktor of Philosophy)»** sözləri əlavə edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 6.2-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~6.2. elmlər doktorlarına və namizədlərinə müvafiq diplomlar, professor və dosentlərə attestatlar verir. Elmlər namizədi alimlik dərəcəsi alan əcnəbilərə, zəruri hallarda, Azərbaycan Respublikası vətəndaşlarına beynəlxalq təcrübəyə uyğun olaraq fəlsəfi doktor (Doktor of Philosophy) diplomu təqdim edir;~~

[16] 5 iyun 2008-ci il tarixli 769 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 487**) ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə»yə 6.3-cü bənddə **«elmi (elmi-tədqiqat, elmi-istehsalat)»** sözlərindən əvvəl **«mülkiyyət formasından asılı olmayaraq»** sözləri əlavə edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 6.3-cü bənddə "**ali məktəblərdə**" sözləri "**ali təhsil müəssisələrində**" sözləri ilə əvəz edilmişdir.

[17] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 6.6-cı bənddə "**alimlik dərəcəsi**" sözləri "**elmi dərəcə**" sözləri ilə əvəz edilmişdir.

21 iyul 2017-ci il tarixli **1544** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 23 iyul 2017-ci il, 157 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1354)** ilə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 6.6-cı bənddən "lazımi" sözü çıxarılmışdır.

[18] 5 iyun 2008-ci il tarixli 769 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 487**) ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə»yə 6.7-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~6.7. alimlik dərəcələrinin və elmi adların tanınması və (və ya) bərabər tutulması barədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri (sazişləri) olan xarici dövlətlərdə alınmış alimlik dərəcələrinin və elmi adların verilməsi haqqında diplom və attestatların nostrifikasiyasını (bərabər tutulmasını) "Alimlik dərəcələrinin və elmi adların verilməsi qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq həyata keçirir və onlara Azərbaycan Respublikasının müvafiq diplomlarını və attestatlarını verir;~~

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 6.7-ci bənddə hər üç halda "**alimlik dərəcələrinin**" sözləri "**elmi dərəcələrin**" sözləri ilə, "**alimlik dərəcəsi**" sözləri "**elmi dərəcə**" sözləri ilə əvəz edilmişdir.

21 iyul 2017-ci il tarixli **1544** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 23 iyul 2017-ci il, 157 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7 , maddə 1354)** ilə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 6.7-ci bənddə "**diplom və attestatların nostrifikasiyasını (bərabər tutulmasını), xarici ölkələrdə elmi dərəcə və elmi ad almış şəxslərin təkrar attestasiyasını (xarici dövlətlərdə alınmış elmi dərəcələrin və elmi adların tanınması və ekvivalentliyinin müəyyən edilməsini)**" sözləri "**sənədlərin tanınmasını nostrifikasiya və ya təkrar attestasiya əsasında** " sözləri ilə əvəz edilmişdir.

[19] 5 iyun 2008-ci il tarixli 769 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 487**) ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə»yə 6.8-ci bənd yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~6.8. alimlik dərəcələrinin və elmi adların tanınması barədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri (sazişləri) olmayan xarici dövlətlərdə alınmış alimlik dərəcələrinin və elmi adların verilməsi haqqında diplom və attestatların "Alimlik dərəcələrinin və elmi adların verilməsi qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq təkrar attestasiyasını keçirir və onlara Azərbaycan Respublikasının müvafiq diplomlarını və attestatlarını verir;~~

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 6.8-ci bənddə "**alimlik**" sözü "**elmi**" sözü ilə əvəz edilmişdir.

[20] 15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 7.1-ci bənddə "**ali məktəblərdə aspirantura,**" sözləri "**ali təhsil müəssisələrində**" sözləri ilə, "**alimlik dərəcəsi**" sözləri "**elmi dərəcə**" sözləri ilə əvəz edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 7.3-cü bənddə "**Alimlik dərəcələri**" sözləri "**Elmi dərəcələrin**" sözləri ilə əvəz edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 7.4-cü bənddə "**alimlik dərəcələrindən**" sözləri "**elmi dərəcələrdən**" sözləri ilə, "Alimlik **dərəcələri**" sözləri "**Elmi dərəcələrin**" sözləri ilə əvəz edilmişdir.

5 iyun 2008-ci il tarixli 769 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 487**) ilə «Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə»də 7.5-ci bənddə **«opponentləri»** sözü **«rəsmi opponentləri»** sözləri ilə əvəz edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 7.5-ci bənddə "**Alimlik dərəcələri**" sözləri "**Elmi dərəcələrin**" sözləri ilə, "**ali məktəblərin**" sözləri "**ali təhsil müəssisələrinin**" sözləri ilə əvəz edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 7.6-cı bənddə "**ali məktəblərdə**" sözləri "**ali təhsil müəssisələrində**" sözləri ilə əvəz edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85)** ilə təsdiq edilmiş

“Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə”nin 7.8-ci bənddə “**alimlik dərəcələri**” sözləri “**elmi dərəcələr**” sözləri ilə əvəz edilmişdir.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 18 fevral 2011-ci il, 38, “Azərbaycan” qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə”nin 7.12-ci bənddə “**ali məktəblərin**” sözləri “**ali təhsil müəssisələrinin**” sözləri ilə əvəz edilmişdir, “**aspirantura,**” sözü çıxarılmışdır.

15 fevral 2011-ci il tarixli **381** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 18 fevral 2011-ci il, 38, “Azərbaycan” qəzeti, 20 fevral 2011-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 02, maddə 85**) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə”nin 7.13-cü bənddə “**alimlik dərəcələri**” sözləri “**elmi dərəcələr**” sözləri ilə əvəz edilmişdir.

